# Magistral Boru Kəmərlər Sistemi

Fənn: Qaynaq tikişlərinin keyfiyyətinə nəzarət
Səviyyə: ümumi əsaslar, orta və yüksək səviyyə
Müddət: 5 gün
Təlimatçı: t.e.n. Fərrux Seyidli

**Nəzərdə tutulur:**

Boru kəmərlər sisteminin, layihələndirilməsində tikintisində və istismarında qaynaq tikişlərinin keyfiyyətinə nəzarətə məsul olan layihəçilər, mühəndislər, müfəttişlər və texniki-nəzarəti həyata keçirən operatorlar üçün

**Tədriş ediləcək materiallar:**

- Karbohidrogen məhsullarının nəqli üçün magistral boru kəmərlər sisteminin layihələndirilməsini, tikintisini və istismarını tənzimləyən əsas beynəlxalq texniki sənədlər sistemi:
- Boru kəmərlər sisteminin materialının və qaynaq tikişlərinin keyfiyyətinə nəzarət üsulları:
  - dağıdıcı (təhribatlı), DT;
  - dağıdıcı olmayan(təhribatsız), NDT

**Kursun tərkibi:**

- qaynaq tikişlərinin keyfiyyətinə nəzarətin məqsədi;
- mexaniki sınaqlar zamanı müəyyən edilən əsas paramerlər;
- dağıdıcı sınaqların məqsədi və onların aparılması qaydası;
- dağıdıcı sınaqların aparılmasında istifadə edilən avadanlıq və cihazlar.;
- dağıdıcı olmayan əsas nəzarət üsulları və onların nəzəri-fiziki əsasları;
- dağıdıcı olmayan uşullarla nəzarəti həyata keçirən mütəxəssis və operatorların peşəkərlıq səviyyəsini və hazırlıq səviyyəsini tənzimləyən İSO 9712:2005, ASNT NDT, ACCP NDT proqramlarının öyrənilməsi;
- DNV, APİ, ABS və bunlara ekvivalent digər sənədlərə əsasən boru kəmərlər sisteminin qaynaq tikişlərinin keyfiyyətinə nəzarəti tənzimləyən kriteriyalar;
- dağıdıcı olmayan uşullarla nəzarət avadanlıq və cihazları.

**Tədrisi aparan təlimçi haqqında:**

Seyidli Fərrux, t.e.n: “Neftqazelmitədqiqatlayihə” İnstitutunun “ Qaynaq və metalların sınağı” laboratoriyasının böyük elmi işçisi. 35-ildən artıq bir müddətdır ki, qaynaq konstruksiyalarının möhkəmliyi, qaynaq texnologiyası və qaynaq birləşmələrinin keyfiyyətinə nəzarət işləri ilə məşğul olmuşdur. 80-ci illərin əvvəllərində keçmiş SSRİ-nin gəmiqayırma sistemində orta və yüksək legirli, yüksək möhkəmlikli poladlardan və titan ərintilərindən ibarət xüsusi təyinatlı konstruksiyaların qaynaq texnologiyasının işlənilməsi ilə məşğul olmuşdur. Daha sonralar Bakı dərin özüllər zavodunda 8 və 13

saylı DSP-in tikintisində istifadə edilən qaynaq işlərinin və qaynaq işlərinin keyfiyyətinə nəzarətin həyata keçirilməsinə birbaşa rəhbərlik etmişdir. 90-cı illərin əvvəlindən “Dənizneftqazlayihə” DETLİ-nin “Qaynaq konstruksiyaları” laboratoriyasına rəhbərlik etmişdir. 2010-cu ildən, əvvəlcə “Neftqazelmitədqiqatlayihə” İnstitutunun “Qaynaq və metalların sınağı”laboratoriyasının müdiri, sonralar isə böyük elmi işçisi vəzifəsində işləmişdir. “Neftqazelmitədqiqatlayihə” İnstitutu tərəfindən yerinə yetirilən layihələrin material seçminə, qaynaq işlərinə və qaynaq işlərinin keyfiyyətinə nəzarətə texniki tələblərin işlənilməsində yaxından iştirak etmişdir. Bu müddət ərzində DSP-nin qeyri-standart boru birləşmələrinin uclarının həndəsi olçülərini və onun elementləti üçün material seçilməsini tənzimləyən müəssisə standartlarını hazırlamışdır.

**Kursun keçirilmə yeri:**

«Neftqazelmitədqiqatlayihə» İnstitutu

Bütün kurslar institutun daxilində prezentasiya formasında keçirilə bilər. Həmçinin institut daxilində daha da dərindən kurslar təşkil oluna bilər.

Daha ətraflı məlumat almaq üçün kursun koordinatoru ilə əlaqə saxlaya bilərsiniz.

Əlaqə nömrələri: (99412) 521-19-57; Faks (99412) 521-15-15;

e-mail: office.ogpi@socar.az.

Ünvan:

«Neftqazelmitədqiqatlayihə» İnstitutu

AZ 1012, Bakı şəhəri , H.Zərdabi pr.88a